# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 4-cü səhifədə).

Təhsil Nazirliyi tərəfindən 127.677 manatlıq 166 adda 97.229 ədəd pulsuz dərslik gətirilərək bölgü əsasında məktəblərə paylanmışdır. Yerli büdcə hesabına 536.670 manatlıq invertar, idman avadanlıqları, o cümlədən 1000 dəst şagird stolu, 400 dəst odun peçi, 59 ədəd kompüter, 6 ədəd proyektor, 1.204 ədəd yumşaq stul alınaraq bölgü əsasında məktəblərə verilmişdir.

Təhsil sisteminin iformasiylaşdırılması sahəsindəki işlər 2014-cü il ərzində də davam etdirilmiş, məktəblərdə komputerlərin sayı 570-ə çatdırılmışdır. Bununla da hər 20 nəfər şagirdə bir komputer düşməsi haqqında dövlət proqramı Qəbələ məktəblərində artıq həyata keçirilmişdir.

Rayonun 17 məktəbi internet şəbəkəsinə qoşulmuş, 5 tam orta məktəbin, o cümlədən təhsil şöbəsinin xüsusi saytı açılmışdır.

Ulu öndərin irsinin öyrənilməsi ilə əlaqədar Heydər Əliyev Mərkəzində təşkil olunan tədris kursları yüksək fəallıq və işgüzar diskussiya şəraitində keçirilmişdir. 2014-2015-ci tədris ilində də bu dərslər böyük fəallıq və həvəslə davam etdirilir.

Hazırda 28 məktəb fərdi qazanxana sistemi, 40 məktəb isə odun peçi ilə qızdırılır. Fərdi istilik sistemi olan məktəblərin qazanxanasının 11-i qazla, 14-ü duru yanacaqla, 3-ü isə elektriklə qızdırılır.

Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsi də 2014-cü il ərzində tarixi hadisələrin, yubileylərin və əlamətdar günlərin qeyd olunması istiqamətində xeyli işlər görülmüş, yaradıcı kollektivlər respublika tədbirlərində iştirak etmişlər.

2013-cü ildə Qəbələnin MDB ölkələrinin "Mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar ötən il ərzində rayonda silsilə tədbirlər keçirilmiş və yekunda təntənəli bağlanış mərasimi təşkil olunmuşdur. Tədbirdə MDB ölkələrinin mədəniyyət və incəsənət xadimləri, bir sıra ölkələrin Azərbaycandakı səfirləri, rayon ictimaiyyətinin nümayəndələri və digər nüfuzlu qonaqlar iştirak etmişlər. Mədəniyyət Mərkəzində Azərbaycan və rus kinematoqrafçılarının istehsal etdiyi filmlər nümayiş etdirilmişdir.



**Daxili Qoşunların «N» saylı hərbi hissəsində inşa olunan yeni şəhərciyin açılışında**

Eləcə də rayonumuzda ənənəvi VI Qəbələ Beynəlxalq Musiqi Festivalı keçirilmişdir. Festivalda ABŞ, Cənubi Afrika, Ukrayna, İsrail, Avstriya, Kanada, Koreya, Rusiya, Türkiyənin dünya şöhrətli musiqiçiləri, Vyana Akademik orkestri, İohannesburq Simfonik Orkestri, "Kiyev solistləri" milli kamera ansamblı, Tel-Əviv balet qrupu, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri çıxış etmişdir. Festival çərçivəsində tamaşaçılara caz və muğam axşamları da təqdim olunmuşdur.

Dağıstan Respublikasında keçirilən ənənəvi "Tsamauri" II Beynəlxalq Mədəniyyət Festivalında Azərbaycanı "Aşıqlar" qrupu və Qəbələ rayonunun mədəniyyət işçiləri təmsil etmişlər.

2014-cü ildə rayonumuzda II Qəbələ Mürəbbə Festivalı keçirilmişdir. Festivalda 21 rayonun şirniyyat ustaları iştirak etmiş, "Qəbələ guşəsi"nin təşkilinə görə rayonumuz Azərbaycan Respublikası Milli Kulinariya Mərkəzi tərəfindən qızıl medala layiq görülmüşdür.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Azərbaycanın Xalq Yaradıcılığı Paytaxtları" proqramına uyğun olaraq, Nazirliyin 31 mart 2014-cü il tarixli 169 nömrəli əmri ilə Qəbələ rayonu 2014-cü ildə "Azərbaycanın Əfsanələr Paytaxtı" elan olunmuşdur.

Keçən il Şəki şəhərində keçirilmiş IX çövkən milli oyunları festivalında Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin komandası "Yaylıq" milli oyununda birinci yer tutduğuna görə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin fəxri diplomu və pul mükafatına layiq görülmüşdür.

Qəbələ rayon Mədəniyyət Mərkəzində fəaliyyət göstərən xalq teatrında il ərzində iki tamaşa hazırlanmışdır.

2014-cü ildə şöbənin şəbəkəsindəki mərkəzləşdirilmiş kitabxana sistemində ümumi kitab fondu 138222 nüsxə, oxucu sayı 22874 nəfər, kitab verilişi isə 254637 nüsxə olmuşdur.

Mərkəzləşdirilmiş kitabxana sistemində kənd filiallarının birləşdirilməsi ilə bağlı hazırda 27 kitabxana fəaliyyət göstərir. Həmin kitabxanalarda 138 mindən çox kitab fondu vardır. Mərkəzi kitabxanada avtomatlaşdırılmış elktron kataloq və elektron kitabxananın təşkili işinin həyata keçirilməsinə başlanılmışdır.

Hesabat ilində Qəbələ İncəsənət Məktəbinin şagirdləri Xan Şuşinski adına II respublika Muğam Festivalında, xalq çalğı alətləri ifaçılarının III respublika müsabiqəsində və "Müstəqil Azərbaycanım" adlı II respublika rəsm müsabiqəsində iştirak etmişlər.

Tarix-diyarşünaslıq muzeyi rayonun ictimai həyatında mühüm yer tutur. Qəbələnin tarixinin öyrənilməsində, rayonun yerli və xarici turistlərə tanıdılmasında muzeyin rolu əvəzsizdir. Hazırda muzeyin fondunda 13616 ekspoant mühafizə olunur. Ekspozisiya salonlarında isə 2000 eksponat nümayiş etdirilir. Cari ildə fond üçün 315 yeni əşya alınmışdır. İl ərzində muzeyə gələn tamaşaçıların sayı 20.000 nəfər olmuşdur.

Qəbələ Dövlət Rəsm Qalereyası 2014-cü ildə bir sıra sərgi və müsabiqələr təşkil etmişdir. Qalereyanın fondunda 192 təsviri incəsənət nümunəsi vardır. 2014-cü ildə burada 18 sərgi təşkil olunmuş, 2 mühazirə oxunmuşdur.

Qəbələ Tarix-Bədii Qoruğu üçün ötən il daha əlamətdar olmuşdur. Belə ki, 2014-cü ilin sentyabr ayının 22-də ölkə Prezidenti cənab İlham Əliyev Arxeoloji Mərkəzinin binasının açılışında iştirak etmiş və mərkəzin sərgi salonu ilə tanış olmuşdur. Mərkəzdə uzun illər Qədim Qəbələdə aparılmış və bu gün də davam etdirilən arxeoloji qazıntılar nəticəsində tapılmış unikal eksponatlar dünyaya nümayiş etdirilir. Artıq bir neçə ildir ki, burada AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Qəbələ arxeoloji qrupu və SEBA-nın dəstəyi ilə Koreya arxeoloqları birgə qazıntı işləri həyata keçirirlər. Arxeoloji qazıntılar əsasən Qəbələnin antik şəhər yeri, Səlbir və Qala ərazilərində aparılır. Qazıntılar zamanı əldə olunan 1500-ə yaxın eksponat sərgidə nümayiş etdirilir. Yeni tapılan eksponatlar arxeoloji mərkəzdə ən müasir texnologiyalara cavab verən laboratoriyalarda bərpa olunduqdan sonra ekspozisiyaya qoyulur. Mövcud bütün eksponatlar haqqında dövri hesabatlar və tapıntı kitabları nəşr olunmuşdur.

Rayon mərkəzi xəstəxanasında 2014-cü il ərzində büdcə xərcləri 2.258.799 manat olmuş, dərman və sarğı materiallarının alınmasına 325.196 manat vəsait xərclənmiş, əhaliyə 233.051 manatlıq pulsuz dərman verilmişdir.

İl ərzində stasionar xəstələrin sayı 3002 nəfər, cərrahi əməliyyatların sayı 262 olmuşdur.

Zərifə Əliyeva adına Göz Xəstəlikləri İnstitutunun əməkdaşları səyyar briqada şəklində 300-dən artıq xəstəni müayinə etmiş, 23 nəfərdə cərrahiyyə əməliyyatı aparmışlar.

İl ərzində xəstəxanaya 328 paket eritrosit kütləsi alınmışdır. Bunların 115 paketi Mərkəzi Qan Bankından, 213 paketi bankın Şəki bölməsindən gətirilərək talasemiyalı xəstələrə köçürülmüşdür.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar qrafik üzrə 7402 nəfər planlaşdırıldığı halda, 2014-cü il ərzində 4582 nəfər obliqat qrup əhali müayinəyə cəlb edilmişdir. Onların 2450 nəfəri təhsil, 850 nəfəri səhiyyə, 718 nəfəri isə otel və konserv zavodunun işçiləridir. İaşə, ticarət və məişət xidməti işçilərinin cəmi 411 nəfəri müayinəyə cəlb olunmuşdur.

Keçən il 907 nəfərə qoyulmuş tuberkulin sınağının 94 nəfərdə reaksiyası müsbət olmuşdur. 2014-cü ildə 25.346 profilaktik peyvənd edilmiş, peyvəndə müvəqqəti əksgöstəriş 458 olmuşdur.

0-6 yaşlı uşaqlardan 11.560 nəfərə kart hazırlanmış, 540 nəfərə isə yeni kart sifariş edilmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

Hesabat ilində səhiyyə sahəsində də bir sıra nailiyyətlər əldə edilmişdir. Görülmüş işlərin ən önəmlisi isə ölkə Prezidentinin tapşırığı əsasında respublikada, o cümlədən Qəbələ rayonunda 18 yaşından yuxarı əhalinin tibbi müayinədən keçirilməsi tədbirləri olmuşdur.

(Ardı 6-cı səhifədə).